

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 30 (21.691)

11 fevral 2017-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Bakı Dəmir Yolu Vağzalı əsaslı yenidənqurmadan sonra fevralın 10-da istifadəyə verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Bakı Dəmir Yolu Vağzalında yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olublar.

Vağzal binasının üslubu və fasadı Bakı üçün ənənəvi tikililərdən fərqlənir. Belə ki, vağzalın eksteryeri qədim Şərq üslubuna xasdır. Uzun illər istismar və baxımsızlıq üzündən bina görkəmini itirdiyi üçün 2015-ci ilin əvvəlində burada əsaslı yenidənqurma işlərinə start verilib. Vağzal binasında milli ornamentlərə uyğun olaraq yenidənqurma həyata keçirilib.

Vağzalın əsas binasının fasadı memarlıq üslubunun saxlanması şərtilə yenidən qurulub, binanın daxilində əsaslı təmir işləri görülüb.

Dövlətimizin başçısı və xanımı dəmir yolu platformasında müxtəlif istiqamətlərdə hərəkət edən qatarların dayanacaqları və sərnişinlər üçün yaradılan şəraitlə tanış oldular. Vağzalın 7 platforması və 8 yolu da görülən işlər çərçivəsində təmir olunub, platformalarda ikitərəfli oturacaqlar quraşdırılıb. Burada aparılan əsaslı yenidənqurma işləri zamanı rəsmi nümayəndələr zalı da müasir səviyyədə təmir olunub.

Bakı Dəmir Yolu Vağzalında yaradılan şəraitlə tanış olan dövlətimizin başçısı kollektivə uğurlar arzuladı.

## Naxçıvanda İran İslam İnqilabının 38-ci ildönümü qeyd olunmuşdur





Fevralın 10-da İran İslam Respublikasının Naxçıvandakı Baş Konsulluğu tərəfindən İran İslam Respublikasının yaranmasının 38-ci ildönümü – İslam İnqilabı Günü münasibətilə rəsmi qəbul təşkil edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov rəsmi qəbulda iştirak etmişdir.

Tədbirdə Azərbaycan Respublikasının və İran İslam Respublikasının Dövlət himnləri səsləndirilmiş, "Qurani-Kərim"dən ayələr oxunmuşdur.

İran İslam Respublikasının Naxçıvandakı Baş konsulu Mənsur Ayrom çıxış edərək ölkəsinin keçdiyi inkişaf yolundan danışmışdır. Qeyd olunmuşdur ki, 1979-cu ildə yaranan İran İslam Respublikasında ötən dövrdə bütün sahələrdə inkişaf əldə olunmuşdur. Bu gün İran İslam Respublikası dünya ölkələri, eləcə də Azərbaycanla və onun Naxçıvan Muxtar Respublikası ilə səmərəli əməkdaşlıq qurmuşdur. İranın yaxın vilayətləri ilə Naxçıvan Muxtar Respublikası arasında əlaqələr ilbəil genişlənir. Həyata keçirilən tədbirlər əməkdaşlıq üçün yeni istiqamətlər açır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İran İslam Respublikasının yaranmasının 38-ci ildönümü – İslam İnqilabı Günü münasibətilə dost və qardaş İran xalqını təbrik etmiş, İran dövlətinə inkişaf və tərəqqi arzulayaraq demişdir: Xalqlarımızı qədim tarix və ortaq dəyərlər birləşdirir. Ümummilli liderimiz Heydər Əliyev Azərbaycan-İran əlaqələrinin müştərək dəyərlər əsasında inkişafına çalışırdı. Dahi şəxsiyyətin əsasını qoyduğu dostluq və qonşuluq münasibətləri bu gün xalqlarımızın iradəsinə uyğun olaraq davam və inkişaf etdirilir, qarşılıqlı əməkdaşlıq genişlənir. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İranın yaxın vilayətləri arasında yaranmış əməkdaşlıq münasibətləri Azərbaycan-İran əlaqələrinin genişlənməsində mühüm əhəmiyyətə malikdir. Mövcud imkanlardan səmərəli istifadə əlaqələrimizin inkişafı üçün möhkəm zəmin yaradıb. Gömrük-keçid məntəqələrinin fəaliyyəti, iqtisadi-ticarət, energetika, turizm, təhsil, səhiyyə, idman, kənd təsərrüfatı və nəqliyyat sahəsindəki əlaqələrin dinamikası məmnunluq doğurur.

Ali Məclisin Sədri əlaqələrimizin bundan sonra daha da möhkəmlənəcəyinə əminliyini bildirmiş və çıxışını ümummilli lider Heydər Əliyevin fikirləri ilə tamamlamışdır: ***"Azərbaycanın və İranın tarixi keçmişi, ölkələrimizin coğrafi vəziyyəti, dövlətlərimizin bugünkü siyasəti bizi bundan sonra da daha sıx əməkdaşlığa dəvət edir".***

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" 2016-cı ildə uğurla icra olunmuşdur

***Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan iqtisadi inkişaf strategiyasının uğurla davam etdirilməsi Naxçıvan Muxtar Respublikasında da dinamik inkişafın möhkəm təməlini yaratmışdır. Bu işdə sosial-iqtisadi inkişafla bağlı qəbul edilmiş dövlət proqramlarının uğurlu icrasının böyük əhəmiyyəti olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 1 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" iqtisadi sahədə həyata keçirilən tədbirlərin əhatə dairəsini genişləndirmiş, rəqabətədavamlı məhsul istehsal edən müəssisələrin yaradılmasına və nəticə etibarilə yeni iş yerlərinin açılmasına öz təsirini göstərmişdir.***



2016-cı ildə dövlət proqramında nəzərdə tutulan vəzifələrin icrası diqqətdə saxlanılmış, güzəştli şərtlərlə kreditlərin verilməsi davam etdirilmişdir. Muxtar respublikada həyata keçirilən kreditləşmə işində 2016-cı ildə Ali Məclis Sədrinin müvafiq Fərmanı ilə yaradılan "Naxçıvan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyəti vəsaitləri hesabına verilən 4-8 faizli, uzunmüddətli kreditləri də qeyd etmək lazımdır. Belə ki, bu kreditlər muxtar respublikamızda əhalinin mənzil təminatını yaxşılaşdırmaqla bərabər, real sektorun da inkişafına xidmət edir. Sahibkarlığın inkişafının nəticəsidir ki, bu gün muxtar respublikada ümumi daxili məhsul istehsalının həcmində özəl bölmənin payı 87 faizdən çoxdur.

İqtisadi inkişafın əsas göstəricilərindən olan real sektorun inkişafı həm də bank-kredit müəssisələrinin səmərəli fəaliyyətindən asılıdır. Bu baxımdan 2016-cı ildə muxtar respublikada banklar tərəfindən 2160-ı hüquqi, 53 min 620-si fiziki şəxs olmaqla, 55 min 780 müştəriyə xidmət göstərilmişdir. Bu istiqamətdə görülmüş tədbirlər nəticəsində 2016-cı ildə muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 1202-yə çatdırılmışdır.

Sahibkarların hüquqlarının müdafiəsi və onların fəaliyyətinə kənar müdaxilələrin qarşısının alınması istiqamətində tədbirlər davam etdirilmiş, 2016-cı ildə 11 sahibkarlıq subyekti "Nəzarət kitabçası" ilə təmin olunmuşdur. Sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsi tədbirləri çərçivəsində hesabat dövründə muxtar respublikada xüsusi fəaliyyət növləri üzrə 19 lisenziya verilmişdir.

Xarici iqtisadi əlaqələrin genişləndirilməsinə böyük diqqət və qayğının göstərilməsi, ixracın stimullaşdırılması sahəsində qəbul edilən qərarlar, sahibkarlığa sistemli dövlət dəstəyi muxtar respublikada istehsal olunan məhsulların ixrac imkanlarının artmasına, iqtisadi əlaqələrimizin daha da genişlənməsinə, məhsullarımızın dünya bazarlarına daha geniş çeşiddə çıxarılmasına zəmin yaratmışdır. Bu məqsədlə 2016-cı ildə ölkə daxilində və xaricdə keçirilən 16 biznes-forum, 2 beynəlxalq sərgidə 147 sahibkarlıq subyektinin iştirakı, eləcə də muxtar respublikada istehsal olunan qida və tikinti sənayesi məhsullarının nümayişi təmin edilmişdir. Bundan başqa, muxtar respublikada istehsal olunan məhsulların reklam və təşviqi işlərinin aparılması məqsədilə milli dəyərləri əks etdirən 484 əl işi və sənət əsərinin, həmçinin 37 ixrac potensiallı müəssisəyə aid ərzaq və qeyri-ərzaq olmaqla, 339 çeşiddə məhsulun kataloqu hazırlanmışdır.

Ardı 2-ci səhifədə





İxracyönümlü məhsul istehsalının standartların tələbləri səviyyəsində olması vacib məsələdir. Dövlət proqramında bu sahədə nəzərdə tutulan vəzifələr 2016-cı ildə yerinə yetirilmiş, 13 yerli istehsalçı şirkət beynəlxalq GS1 sisteminə daxil edilmiş, 96 yeni ştrixkod verilmiş, ümumilikdə, ştrixkod verilən məhsulların sayı 3493-ə çatdırılmışdır.

Muxtar respublika əhalisinin ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlər sırasında əsas ərzaq məhsullarının keyfiyyətinə nəzarət edilməsi mühüm yer tutur. Bu məqsədlə yüksək maddi-texniki bazaya və kadr potensialına malik müasirtipli laboratoriya yaradılmışdır. Bundan əlavə, Latviya Milli Akkreditasiya Bürosunun ekspertləri Mərkəzi Qida Sınaq Laboratoriyasında olmuş, akkreditasiya sənədləşməsi və analizlər üzrə yoxlamalar apararaq laboratoriyanın beynəlxalq akkreditasiyanın tələblərinə uyğunluğunu müsbət qiymətləndirmişlər. Görülən işlərin nəticəsi olaraq Beynəlxalq Akkreditasiyadan keçmiş Mərkəzi Qida Sınaq Laboratoriyası tərəfindən verilən keyfiyyət sertifikatları ilə ərzaq məhsullarının maneəsiz şəkildə xarici bazarlara çıxarılmasına şərait yaranmış, ixrac olunan məhsullara 115 mənşə sertifikatı verilmişdir.

Xalqımıza məxsus adət-ənənələrin, xalq yaradıcılığı nümunələrinin, eləcə də minilliklər boyu formalaşmış milli dəyərlərin bərpası, qorunması və gələcək nəsillərə ötürülməsinə muxtar respublikamızda xüsusi önəm verilir, bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir. 2016-cı ildə "Naxçıvan Biznes Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 14 fiziki şəxsdən sərgi-satış məqsədilə 9 min 527 manat dəyərində 204 əl işi və sənət əsəri qəbul edilmiş, 6 min 794 manat dəyərində 97 əl işi və 5 min 600 manat dəyərində 27 xalça satılmışdır. Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin cəzaçəkmə müəssisəsində hazırlanmış 1400 manat dəyərində 13 ədəd əl işinin və sənət əsərinin isə sərgi-satışı keçirilmişdir.

Son dövrlərdə Naxçıvanda çoxsaylı yüngül və yeyinti sənayesi məhsullarını və tikinti materiallarını istehsal edən müəssisələr, geniş emal sənaye sahələri yaradılmışdır. Qida sənaye müəssisələrinin istehsal gücləri nəzərə alınmaqla bilavasitə kənd və qəsəbələrdə inşa edilmişdir. Bu da kənd əhalisinin işlə təminatına əlavə imkanlar açır, istehsal müəssisələri yerli xammalla təchiz edilir. Yerli xammaldan istifadə olunması sənaye məhsullarının qiymətlərinin də bazarın tələbatına uyğun olaraq tənzimlənməsinə imkan verir. Ötən il muxtar respublikada bal, pendir və yabanı tərəvəz məhsullarının qablaşdırılması, mebel, qapı-pəncərə, avtomobil şinlərinin üzlənməsi, çörək istehsalı, unlu-qənnadı məmulatları, taxıl emalı sahələri olmaqla, ümumilikdə, 49 sahənin yaradılması başa çatdırılmışdır.

Son illər muxtar respublika iqtisadiyyatında müşahidə olunan sabit artım tempi əhalinin həyat səviyyəsinin yüksəldilməsi, yeni iş yerlərinin açılması və səmərəli məşğulluğun təşkili üçün də əlverişli şərait yaratmışdır. Bu istiqamətdə aparılan məqsədyönlü siyasətin nəticəsidir ki, 2016-cı ildə 3 mindən artıq yeni iş yeri açılmışdır ki, bunun da 98 faizi daimi iş yerləridir.

Naxçıvan Muxtar Respublikasında əhalinin zəruri ərzaq məhsulları ilə təmin edilməsi məqsədilə aqrar sektorda ötən illər ərzində aparılan köklü islahatlar bu sahənin daha da sürətli inkişafına əlverişli zəmin yaratmışdır. Kənd təsərrüfatında yüksək məhsuldarlığa nail olmaq və istehsalın rəqabət qabiliyyətliliyini artırmaq məqsədilə toxum, yanacaq və sürtkü materialları, mineral gübrə və damazlıq mal-qara alışına subsidiyalar verilməkdədir. Aparılmış genişmiqyaslı işlərin, ardıcıl siyasətin nəticəsində artıq muxtar respublikada, demək olar ki, bütün əsas kənd təsərrüfatı məhsulları üzrə daxili tələbat nəinki tam ödənilir, hətta bəzi məhsullar ölkəmizin və yaxın xarici dövlətlərin bazarlarına da çıxarılır.

Məhsul istehsalçılarının kənd təsərrüfatı maşın və mexanizmləri ilə təchizatı davamlı olaraq yaxşılaşdırılmaqdadır. "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 2016-cı ildə 66 müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və avadanlıq muxtar respublikaya gətirilmiş, əvvəlki dövrdə gətirilənlərlə birlikdə 102 müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və avadanlıq güzəştli şərtlərlə lizinq yolu ilə məhsul istehsalçılarına verilmişdir. Bundan əlavə, məhsul istehsalçıları 4 min 923 tondan çox mineral gübrə ilə təmin edilmişdir.

Baytarlıq xidmətinin əhatə dairəsini genişləndirmək və keyfiyyətli heyvandarlıq məhsullarının istehsalına nail olmaq məqsədilə 2016-cı ildə bir sıra işlər görülmüş, Şərur rayonunun Oğlanqala, Arbatan, Culfa rayonunun Gülüstan, Saltaq, Babək rayonunun Məzrə, Hacıvar, Xəlilli, Ordubad rayonunun Baş Dizə, Şahbuz rayonunun Daylaqlı, Kiçikoba və Kəngərli rayonunun Yurdçu kəndlərində baytarlıq məntəqələri istifadəyə verilmişdir.

Aqrar sahənin inkişafında meliorativ tədbirlər xüsusi önəmə malikdir. Muxtar respublikada müasir meliorasiya və irriqasiya sistemlərinin qurulması su itkisini aradan qaldırmaqla bərabər, yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılmasına da şərait yaratmışdır. Mütərəqqi suvarma şəbəkələrinin qurulması və yeni su xətlərinin çəkilməsi nəticəsində 2016-cı ildə muxtar respublikada 923 hektar torpaq sahəsi əkin dövriyyəsinə qatılmışdır.

Ümumilikdə, ötən il kənd təsərrüfatı məhsullarının istehsalının artırılması məqsədilə muxtar respublikada 6 heyvandarlıq, bir quşçuluq, bir balıqçılıq, 6 soyuducu anbar və 3 istixana təsərrüfatı fəaliyyətə başlamışdır. Bütün bunların nəticəsidir ki, son illər güzəştli kreditlər hesabına 235 heyvandarlıq, 64 quşçuluq təsərrüfatı, 15 balıqçılıq, 102 arıçılıq, 196 hektar sahədə 64 bağçılıq, 10 hektar sahədə 8 üzümçülük təsərrüfatı, ümumi tutumu 14 min 30 ton olan 31 soyuducu anbar, sahəsi 127 min 162 kvadratmetr olan 21 istixana kompleksi və digər müasir müəssisələr yaradılmışdır.

Yaşayış məntəqələrində müasir infrastrukturun qurulması, yolların abadlaşdırılması, təbii qazın, elektrik enerjisinin davamlı verilməsi, bütün kəndlərin telefonlaşdırılması kənddə şəhər rahatlığını yaratmışdır. Artıq muxtar respublikada kənd yaşayış məntəqələrinin əksəriyyətində nümunəvi kənd mərkəzləri salınmışdır. 2016-cı ildə muxtar respublikanın rayon mərkəzlərində, qəsəbə və kəndlərində 212 infrastruktur obyekti istifadəyə verilmişdir. 49 infrastruktur obyektinin inşası davam etdirilir.




Muxtar respublikanın şəhər və rayonlarında mövcud olan iqtisadi potensialdan tam və səmərəli istifadə olunması, sosial-iqtisadi vəziyyətin yaxşılaşdırılması təhsil, səhiyyə, idman-sağlamlıq, mədəniyyət obyektlərinin istifadəyə verilməsinə səbəb olmuşdur. Bu inkişafın nəticəsidir ki, 2016-cı ildə 256 müxtəlif təyinatlı obyekt, o cümlədən 18 təhsil, 13 səhiyyə, 5 idman, 29 mədəniyyət müəssisəsi, 13 kənd və 14 xidmət mərkəzi, 2 ictimai yaşayış binası tikilərək istifadəyə verilmiş, 9 yaşayış binasında yenidənqurma və əsaslı təmir işləri aparılmışdır. Ötən il Naxçıvanda müasir yol-nəqliyyat sisteminin qurulması məqsədilə 62 kilometr uzunluğunda avtomobil yolları salınmış, 5 körpü tikilmiş və ya əsaslı təmir olunmuş, Avtomobil və Ehtiyat Hissələrinin Satış Mərkəzi və yeraltı qaraj, Naxçıvan Beynəlxalq Hava Limanının "Qərb terminalı" istifadəyə verilmiş, Babək rayonunun 7 yaşayış məntəqəsini birləşdirən Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolunun yenidən qurulmasının ikinci mərhələsi başa çatdırılmışdır. Bundan başqa, 2016-cı ildə Naxçıvan-Təbriz-Tehran-Məşhəd beynəlxalq sərnişin qatarı fəaliyyətə başlamış, bu məqsədlə 3 sərnişin vaqonu gətirilmiş, Bakı-Tbilisi-Qars dəmir yolunun Naxçıvan-Culfa-Təbriz dəmir yolu xəttinə birləşdirilməsi istiqamətində zəruri tədbirlər həyata keçirilmişdir.

Muxtar respublikada rabitə və yeni texnologiyaların tətbiqi sahəsində görülən işlər insanların informasiyaya olan tələbatının dolğun ödənilməsinə, xidmətin keyfiyyətinin yüksəldilməsinə səbəb olmuşdur. Görülən işlərin nəticəsidir ki, muxtar respublikanın yaşayış ərazilərinin 98 faizində genişzolaqlı, 99 faizində isə simsiz internet xidməti yaradılmış, 102 kilometr məsafədə fiber-optik kabel xətti çəkilmişdir. 2016-cı ildə "Naxtel" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən dördüncü nəsil mobil rabitə şəbəkəsinin istifadəyə verilməsi əhalinin elektron xidmətlərə çıxışını, sürətli internetdən istifadə imkanlarını daha da yaxşılaşdırmışdır.

Naxçıvanda yeni texnologiyalar iqtisadiyyatın bütün sahələrində tətbiq olunur. Muxtar respublikada informasiya cəmiyyətinə keçid və elektron hökumətin formalaşdırılması sahəsində ardıcıl tədbirlər görülür. 2016-cı ildə Naxçıvanda Vətəndaşların Müraciətləri üzrə Elektron Qeydiyyat və İdarələrarası Elektron Sənəd Dövriyyəsi Sistemləri istifadəyə verilmiş, "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətinin kompüter şəbəkəsinin Azərbaycan Respublikası Mərkəzi Bankının Hökumət Ödəniş Portalına qoşulmasından sonra bu sistemə daxil olmuş bütün bank-maliyyə sektorunun və digər qurumların ödənişlərinin poçt məntəqələrində yığılmasına başlanılmışdır. Muxtar respublikada poçt xidmətlərinin çeşidinin və keyfiyyətinin artırılması istiqamətində də tədbirlər görülmüş, 10 yeni poçt bölməsi istifadəyə verilmişdir.

Əhalinin rahatlığına və yaşayış səviyyəsinin yüksəlməsinə xidmət edən kommunal-məişət sistemlərinin yaxşılaşdırılması istiqamətində görülən tədbirlərin tərkib hissəsi kimi içməli su və kanalizasiya sistemlərinin yenidən qurulması muxtar respublikamızda irriqasiya sahəsində görülən əsas işlərdəndir. Belə ki, ötən il Naxçıvan şəhərinin Tumbul, Qaraçuq, Qaraxanbəyli və Bulqan kəndlərində içməli su və kanalizasiya şəbəkəsi istifadəyə verilmiş, çirkab sutəmizləyici qurğunun tikintisi davam etdirilmişdir. Muxtar respublikanın rayonları üzrə 56,9 kilometr uzunluğunda içməli su xətləri çəkilmiş, 76,6 kilometr uzunluğunda içməli su xətləri təmir olunmuşdur. Bundan başqa, 15 kəhrizin təmiri başa çatdırılmış, 5 kəhrizin təmiri davam etdirilmiş, 68,2 kilometr uzunluğunda sugətirici kanallar yenidən qurulmuş və ya əsaslı təmir olunmuş, 127,9 kilometr uzunluğunda kanallar lildən təmizlənmiş, 4 subartezian quyusu tikilmiş, 4 subartezian quyusu isə bərpa olunmuşdur.

Uzunmüddətli fasilədən sonra muxtar respublikada istehlakçıların, xüsusilə əhali təsərrüfatlarının təbii qazla təminatı iqtisadi inkişafa mühüm töhfə vermişdir. Artıq əhalinin və təsərrüfat subyektlərinin qazla təchizatı prosesi başa çatdırılmış, bütün mənzillərdə qaz sayğacları quraşdırılmışdır. 2016-cı ildə istehlakçılarda olan qaz sayğaclarının smartkarttipli elektron sayğaclarla əvəz olunması üçün 13 min 621 sayğac sifariş verilmiş, sayğaclardan 13 min 528 ədədi istehlakçılarda olan qaz sayğacları ilə əvəz olunmuşdur.

Sosial sahələrin inkişafı da ötən il diqqət mərkəzində saxlanılmışdır. Bu dövrdə 460 tənha ahıl və sağlamlıq imkanları məhdud şəxslərə evlərində, 16 nəfərə isə Ahıllar evində sosial-məişət xidmətləri göstərilmiş, Naxçıvan Əlillərin Bərpa Mərkəzində sağlamlıq imkanları məhdud 282 şəxsin, Naxçıvan Uşaq Bərpa Mərkəzində isə 365 uşağın müalicəsi təşkil edilmişdir. Sağlamlıq imkanları məhdud 330 sakin sanatoriya və müalicə pansionatlarına yollayışlarla təmin edilmiş, 340 şəxsə protez-ortopedik xidməti göstərilmiş, 278 şəxs texniki reabilitasiya vasitələri ilə təmin olunmuşdur. Sağlamlıq imkanları məhdud 11 muxtar respublika sakininin xaricdə, 49-nun ölkə daxilində müalicəsinə, 64-nün isə sosial-məişət şəraitinin yaxşılaşdırılmasına köməklik göstərilmişdir. Sosial qayğıya ehtiyacı olan 4 şəhid ailəsinə və sağlamlıq imkanları məhdud 7 Azərbaycan Vətən Müharibəsi iştirakçısına yeni mənzil, 2 şəxsə isə minik avtomobili verilmişdir.



Ekoloji siyasətin əhəmiyyəti nəzərə alınaraq ötən il ətraf mühitin mühafizəsi və təbii resurslardan səmərəli istifadə olunması istiqamətində fəaliyyət də uğurla davam etdirilmişdir. 2016-cı ildə 546 hektar sahədə meşəsalma və meşəbərpa tədbirləri aparılmış, 452 minə yaxın ağac və bəzək kolları əkilmişdir.

Proqramın uğurlu icrası nəticəsində elmi-tədqiqat işlərinin müasir tələblər səviyyəsində yerinə yetirilməsi istiqamətində mühüm tədbirlər görülmüşdür. Belə ki, Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin maddi-texniki bazası gücləndirilmiş, alim və tədqiqatçılar üçün hərtərəfli iş şəraiti yaradılmışdır. Bu sahədə görülən işlərin davamı olaraq bölmənin Təbii Ehtiyatlar İnstitutunun Seysmoloji Xidmət Mərkəzi istifadəyə verilmişdir.

Nəqliyyat infrastrukturu obyektlərinin adlarını və daşınmaz əmlak obyektlərinin nömrələrini əks etdirən lövhələrin sənaye üsulu ilə hazırlanması məqsədilə muxtar respublika üzrə əhalisi 5 mindən çox olan kənd yaşayış məntəqələrində mövcud olan nəqliyyat infrastrukturu obyektləri naturada dəqiqləşdirilərək ünvan xəritələri hazırlanmışdır.

*Bir sözlə, 2016-cı ildə "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın uğurlu icrası ölkəmizin ümumi inkişafında Naxçıvan Muxtar Respublikasının imkanlarını daha da genişləndirmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi:* ***"Son illər ərzində Naxçıvan böyük inkişaf yolu keçmişdir. Naxçıvan şəhərinin abadlaşdırılması, gözəlləşdirilməsi, infrastruktur layihələrinin icrası, bütün şəhər və kəndlərin abadlaşması prosesi onu göstərir ki, respublika möhkəm ayaqda dayanır. Bu gün Naxçıvan Muxtar Respublikasının çiçəklənmə dövrüdür. Çünki bütün istiqamətlər üzrə işlər uğurla gedir və gözəl nəticələr var".***

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***



## Azərbaycan-İran əlaqələri davamlı inkişaf mərhələsindədir



*1979-cu il fevralın 11-də İran İslam Respublikası yaranmışdır. Həmin tarixdən başlayaraq hər il fevralın 11-i İran İslam Respublikasında Milli Bayram – İslam İnqilabı Günü kimi qeyd olunur.*

Azərbaycan ilə İran arasında əlaqələr xalqlarımızın mənafeyinə uyğun olaraq inkişaf və davam etdirilir. Bu əlaqələrin əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən ötən əsrin 90-cı illərində Naxçıvanda qoyulmuşdur. Dahi şəxsiyyət ölkəmizə rəhbərliyi dövründə isə ikitərəfli münasibətlərin inkişafına mühüm əhəmiyyət vermiş, bu sahədə ardıcıl tədbirlər görülmüşdür. Ulu öndər Azərbaycan-İran əlaqələri barədə demişdir: ***"İran ilə Azərbaycan arasındakı əlaqələrin qədim, çox zəngin tarixi var. Həyatımızın bütün sahələrində xalqlarımız çox müştərək işlər görmüşlər və dünya mədəniyyətinə çox böyük töhfələr vermişlər. Adət-ənənələrimizin, milli-mənəvi dəyərlərimizin oxşarlığı, bənzərliyi və bir-birinə yaxın olması, bir kökdən olması bizi daim dost, qardaş olaraq yaşatmışdır".***

Bu gün Azərbaycan-İran əlaqələri keyfiyyətcə yeni mərhələyə yüksəlmişdir. Qarşılıqlı imzalanan sənədlər, əldə olunan razılıqlar, münasibətlərin daha da genişləndirilməsi istiqamətində atılan addımlar siyasi, iqtisadi və mədəni sahədə əlaqələrin dərinləşməsi üçün yeni imkanlar açmışdır. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İranın yaxın vilayətləri arasında da əlaqələr uğurla inkişaf etdirilir. Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasındakı sərhəd nəzarət-buraxılış məntəqələrində və Naxçıvan Beynəlxalq Hava Limanında muxtar respublikamıza səfər edən İran vətəndaşlarına sadələşdirilmiş qaydada viza olmayan birdəfəlik giriş icazələri verilir. Naxçıvan Muxtar Respublikasının Culfa Gömrük İdarəsinin və Şahtaxtı Gömrük İdarəsinin sərhəd-keçid kompleksinin müasir tələblər səviyyəsində tikilib istifadəyə verilməsi, beynəlxalq standartlara cavab verən avadanlıqlarla təchiz olunması və iş saatının artırılması gedişgəlişi sadələşdirmişdir. Bütün bunların nəticəsidir ki, ticarət-iqtisadi əlaqələr ilbəil genişlənir, gediş-gəliş artır. Təkcə 2016-cı ildə İranla Naxçıvan Muxtar Respublikası arasındakı Culfa və Şahtaxtı keçid məntəqələrindən hər iki tərəfdən 450 minə yaxın insan istifadə etmişdir. Ötən dövrdə İran İslam Respublikasının yaxın vilayətlərində fəaliyyət göstərən universitetlərin rektor və professor-müəllim heyətinin Naxçıvana səfər etməsi, Naxçıvan Dövlət Universitetində iranlı tələbələrin təhsil alması elm və təhsil sahəsindəki əlaqələrin inkişafına töhfə vermişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov demişdir: ***"Azərbaycan və İran xalqlarını tarix, mədəniyyət və ortaq dəyərlər birləşdirir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev bu dəyərlərin inkişafına daim mühüm əhəmiyyət verirdi. Qeyd etmək xoşdur ki, bu gün dövlət başçılarının iradəsi ilə ikitərəfli münasibətlərimiz yeni mərhələyə yüksəlmişdir. Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası ilə İran və onun yaxın vilayətləri arasında imzalanan sənədlər, əldə olunan razılıqlar, münasibətlərimizin daha da genişləndirilməsi istiqamətində atılan addımlar siyasi, iqtisadi və mədəni sahədə əlaqələrin dərinləşməsi üçün yeni imkanlar açmışdır".***

Ötən il əlaqələrin inkişafı baxımından məhsuldar olmuşdur. Belə ki, 2016-cı il dekabrın 29-da İran İslam Respublikasının rabitə və informasiya texnologiyaları naziri Mahmud Vaezinin rəhbərlik etdiyi nümayəndə heyəti muxtar respublikaya səfər etmişdir. Həmin gün Naxçıvan-Təbriz-Tehran-Məşhəd sərnişin qatarı fəaliyyətə başlamış, muxtar respublikada Azərbaycan-İran Biznes Forumu və Azərbaycan-İran hökumətlərarası iqtisadi əməkdaşlıq komissiyasının yekun iclası keçirilmiş, sahibkarlar arasında qarşılıqlı əməkdaşlıq imkanları müzakirə olunmuşdur. Bütün bunlar əlaqələrimizin inkişafına layiqli töhfədir. Bu əlaqələrin davamlı olacağını bildirən ölkə Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***"İranla Azərbaycan arasında olan münasibətlər çox sürətlə inkişaf edir. Siyasi, iqtisadi, humanitar və digər sahələrdə bizim aramızda əməkdaşlığın əməli nəticələri vardır. Bu əməkdaşlıq daha da güclənəcəkdir".***

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

---

*Naxçıvanı niyə seçdiniz?*

## "Əl-Fəcr" qəzetinin baş redaktoru Şərif Əl-Bəsil: "Naxçıvan ərəb turistlər üçün maraqlı yerdir"

***Muxtar respublikamızda turizmin inkişaf etdirilməsi üzrə görülən tədbirlər artıq öz bəhrəsini verməkdədir. Əvvəlki dövrlərdən fərqli olaraq, artıq Azərbaycandan çox uzaq coğrafiyalarda yerləşən ölkələrin də Naxçıvana marağı yaranıb. Birləşmiş Ərəb Əmirliklərinin nüfuzlu "Əl-Fəcr" qəzetinin baş redaktoru Şərif Əl-Bəsilin Naxçıvana son səfəri, onun muxtar respublikanın tarix, mədəniyyət və təbiət abidələri ilə tanışlığı bu qənaətə gəlməyə imkan verir. Naxçıvandan ayrılarkən onunla görüşüb təəssüratlarını öyrəndik:***

***– Naxçıvana səyahət edərkən bura haqqında məlumatınız var idi?***



– İlk olaraq onu qeyd etməliyəm ki, mən artıq Naxçıvana ikinci dəfədir, gəlirəm. Əvvəlcə ötən ilin payızında Naxçıvanda olmuşam. İlk səfərim zamanı gördüyüm qonaqpərvərlik, buradakı zəngin turizm ehtiyatları və yerli əhalinin istiqanlılığı məni yenidən Naxçıvana gətirdi. Ərəb ölkələrində Azərbaycanın turizm potensialına maraq böyükdür. Buraya gəlməmişdən əvvəl Gəncədə idik. Səfərimin sonunda yenə Naxçıvana gəlməyə, keçən dəfə görə bilmədiyim yerlərlə tanış olmağa qərar verdim. Burada bütün turistlər üçün maraqlı yerlər çoxdur.

***– Naxçıvanda diqqətinizi daha çox nə cəlb etdi?***

– Azərbaycanın qədim tarixi haqqında məlumatım var. Ölkənizin digər yerlərində olarkən də buna daha çox diqqət edirəm. Naxçıvanda gördüklərim isə məni lap çox təəccübləndirdi. Buradakı tarixi abidələr heyrətamizdir. Sanki Uca Allah bəşəriyyəti bu torpaqdan yaradıb. Nuh Peyğəmbər, Dünya tufanı haqqında eşitdiklərim məndə dərin təəssürat yaratdı. Müasir turistlər belə maraqlı məlumatlara çox fikir verirlər. Əlincəqaladakı müdafiə dastanını dinləyəndən sonra deməyə söz tapa bilmirəm. Abidənin bərpası onun qorunması ilə bərabər, Əlincəqalaya turistlərin ziyarəti üçün də əlverişli imkan yaradıb. Bunlar nəhəng işlərdir.

***– Bir səyyah kimi Naxçıvanın turizm imkanları haqqında nə deyərdiniz?***

– Burada turistlər üçün hər şey vardır. Rahatlıq, təhlükəsizlik, gözəl xidmət. Naxçıvanın havası çox gözəldir. Biz bu qış günündə Batabata qalxdıq. Dəniz səviyyəsindən 2500 metr yüksəklikdə, dağların zirvəsində hər şey ecazkar idi. Bilirsiniz, bizim yerlərdə qarlı qış olmur. Batabatdakı ağappaq mənzərə mənim çox xoşuma gəldi. Ən çox təsirləndiyim isə burada bələdçimizin çəkdiyi fotoşəkilləri asanlıqla internetdə paylaşa bilməsi idi. Sonra mənə məlumat verildi ki, Naxçıvanın hər yerində, hətta bu dağlarda da 4G mobil rabitə varmış. Əhsən! Bu, həvəskar turistlər üçün çox cazibədardır. Batabatın ekoturizm, Duzdağın müalicə turizm, Əshabi-Kəhfin dini turizm imkanları beləcə tanıdılacaq, buraya daha çox turistlər gələcək. Məqsədim qəzetimiz vasitəsilə ərəb ölkələrində sizin turizm potensialınız barədə informasiya yaymaqdır.

***– 2018-ci ildə Naxçıvan İslam mədəniyyətinin paytaxtı elan olunub. Bu barədə fikirlərinizi bilmək maraqlı olardı.***

– Bu, çox mühüm hadisədir. Bütün İslam dünyası üçün əlamətdar hadisədir. Hazırda dünyada cərəyan edən, müsəlman ölkələrində baş verən hadisələr dövründə İslam mədəniyyətinin, tolerantlığın və xalqlar arasındakı dialoqun möhkəmləndirilməsi daha çox ehtiyacımız olan məsələlərdəndir. Hesab edirəm ki, ölkənizdə bu sahədə aparılan siyasət, görülən işlər dünyaya nümunədir. Naxçıvanda gördüklərim, burada rast gəldiyim insanların istiqanlılığı istənilən əcnəbi vətəndaşda yaxşı təəssürat yaradan amillərdəndir. Ölkəmizə qayıtdıqdan sonra Naxçıvanın gözəllikləri, buradakı qonaqpərvərlik haqqında öz dostlarıma danışacağam, qəzetimizdə bu barədə yazacağam. Sizə, bu gözəl diyarda yaşayan hər kəsə belə gözəl günlər arzu edirəm.

***Müsahibə üçün sağ olun.***

**Əli CABBAROV**

---

*12 fevral Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin yarandığı gündür*

## Naxçıvanda müasir vergi sistemi yaradılıb

***Fevralın 12-də Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin yaradılmasından 17 il ötür.***



Bazar iqtisadiyyatının inkişaf etdirilməsində vergi orqanlarının rolunu yüksək qiymətləndirən ulu öndərimiz Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə bu sahədə ardıcıl tədbirlər həyata keçirilmişdir. Çevik vergi siyasətinin aparılması ulu öndərimizin müəyyənləşdirdiyi iqtisadi strategiyanın tərkib hissəsi idi. Ölkəmizdə vergi münasibətlərinin tənzimlənməsi sahəsində sistemsizlik və boşluqların aradan qaldırılması, qanunvericilik bazasının təkmilləşdirilməsi bu sahədə uğurlu inkişafı təmin etmiş, 2001-ci ildə Azərbaycan Respublikasının Vergi Məcəlləsi qəbul edilmişdir.

Ümummilli liderimizin müəyyənləşdirdiyi sosial-iqtisadi inkişaf strategiyası bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən bütün istiqamətlərdə, o cümlədən vergi siyasəti sahəsində də uğurla davam etdirilir. Ötən dövrdə ölkəmizdə güclü vergi sistemi formalaşdırılmış, geniş təhlil bazasına malik informasiya sistemləri qurulmuşdur. Vergi xidmətində Avtomatlaşdırılmış Vergi İnformasiya Sisteminin işə salınması vergi inzibatçılığının təkmilləşdirilməsinə, vergi sistemində elektron sənəd dövriyyəsinin tətbiqinə, məlumatların işlənməsi sürətinin dəfələrlə artmasına, operativ vergi nəzarətinin qurulmasına və digər qurumlarla inteqrasiyaya yol açmışdır.

Ölkəmizin vergi sistemində bu gün də mühüm islahatlar həyata keçirilir. Ötən dövrdə Azərbaycan iqtisadiyyatının dinamik inkişafına paralel olaraq Vergi Məcəlləsinə də müvafiq dəyişikliklər edilmiş, sahibkarların vergi yükü azaldılmış, vergi dərəcələrinin optimal həddədək aşağı salınması təmin olunmuşdur.

Son zamanlar Vergi Məcəlləsinə edilmiş dəyişikliklər sahibkarlıq və investisiya fəaliyyətini təşviq etməklə bərabər, vergi ödəyicilərinin hüquqlarının qorunmasına, vergitutma bazasının daha da genişləndirilməsinə səbəb olmuşdur. Ölkəmizdə yaradılan sənaye, yaxud texnologiyalar parklarının rezidenti olan hüquqi şəxslərin və ya fərdi sahibkarların 7 il müddətinə vergilərdən azad edilməsi, investisiya təşviqi sənədini almış hüquqi şəxslərin və ya fərdi sahibkarların mənfəətinin və ya gəlirinin 50 faizinin, habelə texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalının investisiya təşviqi sənədinin alındığı tarixdən 7 il müddətinə əlavə dəyər vergisindən azad edilməsi sahibkarlığın inkişafında mühüm əhəmiyyət daşıyır. Bundan başqa, kənd təsərrüfatı məhsullarının istehsalçılarının 2014-cü il yanvarın 1-dən 5 il müddətinə torpaq vergisi istisna olmaqla, digər vergilərdən azad edilməsi, 2017-ci ilin yanvar ayının 1-dən 3 il müddətinə quş ətinin satışının əlavə dəyər vergisindən azad edilməsi və kənd təsərrüfatı sahəsində digər vergi güzəştləri sahibkarlığın inkişafına göstərilən dövlət dəstəyinin bariz nümunəsidir.

Ölkəmizin vergi sistemində aparılan islahatlar muxtar respublikamızda da uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2000-ci il 12 fevral tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Baş Dövlət Vergi Müfəttişliyinin bazasında Naxçıvan Muxtar Respublikasının Vergilər Nazirliyi yaradılmış, nazirliyin Əsasnaməsi təsdiq edilmişdir. Bu müddət ərzində nazirliyin yerli qurumları üçün yeni inzibati binalar tikilib istifadəyə verilmiş, nazirliyin binası əsaslı təmir edilərək yenidən qurulmuş, vergi orqanlarının əməkdaşlarına müasir standartlara cavab verən iş şəraiti yaradılmış, maddi-texniki bazanın gücləndirilməsi sahəsində xeyli işlər görülmüşdür.

Muxtar respublikamızda ərzaq və qeyri-ərzaq məhsullarına olan tələbatın daxili imkanlar hesabına ödənilməsi üçün idxaldan asılılığın aradan qaldırılması istiqamətində görülən tədbirlər, iqtisadi inkişafın yeni keyfiyyət mərhələsinə daxil olması və sosial infrastruktur təminatının yaxşılaşdırılması nəticəsində makroiqtisadi göstəricilərin artımına nail olunmuş, aparılmış uğurlu sosial-iqtisadi siyasət Vergilər Nazirliyi üzrə müəyyən edilən proqnoz tapşırıqların vaxtında icra edilməsinə böyük zəmin yaratmışdır. Muxtar respublikada sahibkarlığa dövlət dəstəyinin nəticəsidir ki, özəl sektordan vergi daxilolmaları 2015-ci illə müqayisədə 2016-cı ildə 3 milyon 106 min manat və ya 7,6 faiz artmış və ümumi vergi daxilolmalarında onun xüsusi çəkisi 68,9 faizə çatdırılmışdır. Sahibkarların işinə qanunsuz müdaxilələrin aradan qaldırılmasının və iqtisadiyyatın şaxələndirilməsi istiqamətində görülən işlərin nəticəsində sahibkarlıq subyektlərinin sayı sürətlə artmış, "bir pəncərə" prinsipinin tətbiq olunmasına başlanandan, yəni 2008-ci ildən 2017-ci ilədək muxtar respublika üzrə 242 kommersiya hüquqi şəxs dövlət qeydiyyatına, 15 min 263 fiziki şəxs isə sahibkarlıq uçotuna alınmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" 2011-ci il 15 iyul tarixli Fərmanına uyğun olaraq vergi orqanlarında elektron xidmətlər genişləndirilmiş, 2007-ci ildən başlayaraq bəyannamələrin elektron qaydada alınmasına başlanılmışdır ki, bu da vergi ödəyicilərinin işini daha da asanlaşdırmışdır. Onlar vergi orqanlarına gəlmədən "onlayn" rejimdə bəyannamələri təqdim edir, göndərdikləri məktubların hərəkətini izləyir, Vergi Məcəlləsinə edilmiş dəyişikliklər barədə məlumatlandırılırlar.

Vergilər Nazirliyində inzibati-idarəetmə sahəsində texnoloji tərəqqinin daha da sürətləndirilməsinin nəticəsidir ki, 2016-cı ildə vergi ödəyiciləri tərəfindən təqdim olunmuş 24 min 735 vergi bəyannaməsinin vergi orqanlarında yerlərə getmədən – kameral qaydada yoxlanılması nəticəsində 184 vergi ödəyicisi tərəfindən təqdim edilən bəyannamələrdə vergilərin düzgün hesablanmaması aşkar edilmişdir. Elektron xidmətlərin tətbiqi şəffaflığın, hesabatlılığın artmasına, vergi ödəyicilərinə göstərilən xidmətlərin keyfiyyətinin və səmərəliliyinin əhəmiyyətli dərəcədə yüksəlməsinə səbəb olmuşdur.

Texnoloji yeniliklərin tətbiqi, muxtar respublikamızda insan kapitalına sərmayə qoyuluşunun artırılması vergi orqanlarının bacarıqlı və savadlı kadrlarla təminatını daha da artırmışdır. Son illər ərzində 69 əməkdaş müsabiqə yolu ilə vergi orqanlarında xidmətə qəbul edilmişdir.

Vergilər Nazirliyinin kollektivi qarşıya qoyulan tapşırıqların icrasını bundan sonra da layiqincə yerinə yetirəcək, muxtar respublika iqtisadiyyatının inkişafına öz töhfəsini verəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin mətbuat xidməti***

# Gələcəyimizi təmin etmək üçün uşaqlar vətənpərvər və sağlam böyüdülməlidirlər




***Qədim diyarımız qışın qar sevincli, qar ətirli günlərinin sehrinə düşüb. Yurdumuz öz gözəlliyinin yeni çalarlarına qovuşub. Uşaqlar qartopu oynamaqları üçün əllərinə düşən fürsətdən, necə deyərlər, o ki var istifadə edirlər.***

Sərhəd bölgəmiz Heydərabad qəsəbəsində fəaliyyət göstərən uşaq bağçasında bunun bir daha şahidi oluram. Bağçanın həyətində tərbiyəçi müəllimin nəzarəti altında qartopu oynayan uşaqların şən gülüşləri ətrafa yayılıb. Bağçanın həyətinə daxil olduğumuzu görən uşaqlar bir anlığa öz oyunlarına ara verirlər. Salamlaşırıq. Çoxdankı tanışlar kimi bizimlə söhbətə girişirlər.

– Kim qarın gözəlliyi haqqında şeir deyə bilər? – deyə soruşuram.

Bir qədər düşünən uşaqlardan biri daha zirək çıxır:

*Qar yağır, elə bil ki, göydən ağ ulduz yağır*
*Torpağın sinəsinə,*
*Torpaq qar yorğanına bürünüb yatır yenə.*

Daha bir uşaq qabağa keçir:

*Qar yağır... insan kimi sevinir ana torpaq.*
*Sevinir ki, məhsulu yenə də bol olacaq.*

– Şeiri kim yazıb?

– Asim Yadigar, – deyə xorla cavab verirlər. Digər uşaqlar da səs-səsə verərək şeir söyləmək istəyirlər...

...Bir vaxtlar bəzi kəndlərimizdə fəaliyyət göstərən uşaq bağçalarını yadıma salmağa çalışır, fəaliyyət göstərdiyi dövrün tələblərinə belə cavab verməyən həmin məktəbəqədər təhsil müəssisələrinin yerləşdikləri binaları gözlərim önünə gətirirəm. Müqayisə aparmağa dəyməz. Hətta heç bir baxımdan. Muxtar respublikamızda indiki uşaq bağçalarının binaları orta məktəb binalarından seçilmir.

Bağçanın müdiri Aksana Həsənova bakılıdır, hərbçi həyat yoldaşı ilə bir neçə ildir ki, Sədərək rayonunun mərkəzi Heydərabad qəsəbəsinə gəliblər. Deyir ki, bu qəsəbəyə ayaq basanda gözlərimə inana bilmədim. İnana bilmədim ki, sözün həqiqi mənasında, düşmənlə bir addımlıqda belə gözəl, yaraşıqlı qəsəbə salına, yeni infrastruktur yaradıla. Elə götürək bu uşaq bağçasını. 2013-cü ilin oktyabr ayında istifadəyə verilən bağça zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarətdir. Burada müxtəlif yaş qrupunda olan uşaqların məktəbəqədər tərbiyəsinin günün tələbləri səviyyəsində qurulması üçün hərtərəfli şərait yaradılıb. Binada metodist, valideyn və yataq otaqları, yeməkxana, tədbirlər, oyun və şənlik zalları, mətbəx, ərzaq anbarı, camaşırxana və fərdi qazanxana yaradılıb.





144 yerlik bağçada körpələr, orta, 2 böyük və məktəbəhazırlıq olmaqla, 5 qrup fəaliyyət göstərir.

Binanın açılış mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov deyib: "Hər bir ölkənin gələcəyini təmin etmək üçün, ilk növbədə, uşaqların hərtərəfli böyüməsinə ciddi diqqət yetirmək lazımdır. Bu mənada uşaqların məktəbəqədər tərbiyəsinin düzgün təşkili, onların hərtərəfli təhsil alması vacib məsələlərdəndir. Bu gün Heydərabad qəsəbəsində istifadəyə verilən uşaq bağçasında da gələcəyimiz olan uşaqlar tərbiyə olunacaqdır... Məktəbəqədər təhsil uşaqların intellektual inkişafında, məktəbə hazırlanmasında, bacarıq və vərdişlərin formalaşdırılmasında mühüm rol oynayır. Ona görə də ölkəmizdə bu sahəyə xüsusi diqqət yetirilir, məktəbəqədər təhsil müəssisələrində lazımi şərait yaradılır, uşaq bağçaları dövlətimiz tərəfindən ərzaq və lazımi avadanlıqlarla təmin olunur. Heydərabad qəsəbə uşaq bağçası da müasir avadanlıqlarla təmin edilmiş, uşaqların sağlam böyüməsi üçün hərtərəfli şərait yaradılmışdır. Yaradılan şərait intellektli və bacarıqlı gəncliyin yetişməsinə imkan verəcəkdir".

Tərbiyəçi müəllim Ruhiyyə Zamanova deyir ki, bugünkü uşaq sabahın məktəblisi, sonra tələbəsi və nəhayət, gələcəyimizin idarəedicisidir. Ona görə də onlar bu gün elə tərbiyə edilməlidirlər ki, sabahkı nəticə istədiyimiz kimi olsun. Yəni uşaqlara yurda bağlılıq, vətənpərvərlik, düzlük, xeyirxahlıq kimi müsbət keyfiyyətlər aşılanmalıdır.

Digər tərbiyəçi müəllim Elnarə Abdullayeva da həmkarı ilə razılaşır, öz fikirlərini bizimlə bölüşür:

– Ağıllar çox düzgün deyiblər: uşaq nə qədər əzizdirsə, tərbiyəsi ondan da əzizdir. Biz də sevinirik ki, muxtar respublikamızda bu əziz olan balaların düzgün tərbiyəsi üçün hərtərəfli şərait yaradılır. Heydərabad qəsəbəsində inşa olunan bu bağça sərhəd bölgəsinin sakinlərinə böyük dövlət qayğısının ifadəsidir.

Bağçadakı otaqları gəzir, məşğələlərin gedişi ilə maraqlanırıq. Uşaqlara ilkin vərdişlər öyrədilir. Onlar şəkillər çəkir, müxtəlif fiqurlar düzəldir, şeir və nağıllar söyləyir, əyləncəli oyunlara cəlb olunurlar. Kollektivin tapşırılan vəzifələri layiqincə yerinə yetirmək səyləri gözümüzdən qaçmır. Hər bir uşağa fərdi yanaşılır, onların kollektivçilik ruhunda formalaşmalarına şərait göstərilir. Pianino və mebel avadanlıqları ilə təchiz edilmiş tədbirlər və şənliklər zalına daxil oluruq. Buradakı uşaqlar nağıl aləminə düşüblər. Tərbiyəçi müəllim onlara "Qoçaq oğlan" nağılını danışır. Uşaqlar diqqət kəsiliblər. Aksana müəllimə deyir ki, sərhəd bölgəsində yaşayan uşaqlara qəhrəmanlıq, qoçaqlıq, torpaq sevgisi, düşmənə nifrət hissləri aşılamaq daha çox ustalıq tələb edir. Çünki onlar uşaq olsalar da, çox şeydən xəbərdardırlar.

Zalın pəncərəsindən qarşıdakı dağın yamacında görünən əsgər postlarına baxıram. Uşaqların nəzərlərini həmin ünvana yönləndirir və əsgərlərimizin nə üçün orada dayandıqlarını soruşuram. Nicat adlı uşağın cavabı qəlbimi qürurla doldurur:

– Onlar bizi qoruyurlar, Sədərəyi qoruyurlar ki, düşmənlər torpağımıza girə bilməsinlər. Heç girə də bilməzlər. Çünki bizim güclü ordumuz var.

Fəridə Həşimli əsgərlərimizə həsr olunmuş mahnıları çox sevdiyini söyləyir. Deyir ki, bağçada, rayonda keçirilən tədbirlərdə "Sıravi Əhməd", "Marş irəli, Azərbaycan əsgəri" mahnılarını oxuyur və bizi də bu mahnılardan birinə "qonaq edir":

*Vətən məni yetişdirib bu ellərə yolladı*
*Bu torpağa qurban deyib, Allaha ısmarladı...*
*Boş oturma, çalış dedi, xidmət eylə vətənə.*
*Südüm sənə halal olmaz sən baş əysən*
*düşmənə...*

Yadıma Ali Məclis Sədrinin sözləri düşür: Gələcəyimizi təmin etmək üçün uşaqlar vətənpərvər və sağlam böyüdülməlidirlər... Qarşılaşdığımız bu və bunun kimi mənzərələr göstərir ki, gələcəyimiz etibarlı əllərdə olacaq.

✍ **Muxtar MƏMMƏDOV**



## Pensiyalar artımla ödənilib

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondundan aldığımız məlumata görə, fond bütün növ əmək pensiyaları üzrə pensiyaların sığorta hissəsinin artırılması prosesini başa çatdıraraq əmək pensiyaçılarına ödənilməsini təmin edib.***

Əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi pensiyanın ümumi məbləğindən baza hissəsi və baza hissəsinə görə verilən əlavələr çıxılmaqla, pensiyanın sığorta hissəsinə 12,4 faiz (2016-cı il üzrə istehlak qiymətləri indeksi) əlavə edilməklə artırılıb.

Fond tərəfindən muxtar respublika üzrə əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi hərbi qulluqçular, xüsusi rütbəli şəxslər və dövlət qulluqçusu kimi əmək pensiyası alan pensiyaçılar istisna olmaqla, 48415 nəfər əmək pensiyaçısına şamil edilib. Bunlardan 28316 nəfəri yaşa görə, 13429 nəfəri əlilliyə görə, 6670 nəfəri isə ailə başçısını itirməyə görə əmək pensiyası alan pensiyaçılardır.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun yerli orqanları tərəfindən bütün növ əmək pensiyaları üzrə hesablanmış artımlar 2017-ci ilin yanvar ayından hesablanmaqla fevral ayının pensiya ödənişində əmək pensiyaçılarının plastik bankomat kartlarına köçürülüb.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti 21 yanvar 2017-ci il tarixdə "Əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi haqqında" Sərəncam imzalayıb. Bu sərəncama görə əmək pensiyalarının sığorta hissəsinin və sığortaolunanların fərdi şəxsi hesablarında toplanmış pensiya kapitalı məbləğləri 2016-cı il üzrə istehlak qiymətləri indeksinə uyğun olaraq 2017-ci ilin 1 yanvar tarixinə 12,4 faiz artırılıb.

**Xəbərlər şöbəsi**

# Muzey bələdçiləri üçün seminar-treninqlər davam etdirilir



***Muxtar respublikamızda fəaliyyət göstərən muzeylərin bələdçiləri üçün seminar-treninqlərin keçirilməsi davam etdirilir. Növbəti belə tədbirin ünvanı Naxçıvan Dövlət Tarix Muzeyi olub.***

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə keçirilən seminar-treninqi giriş sözü ilə açan Naxçıvan Dövlət Tarix Muzeyinin direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Nizami Rəhimov bildirib ki, muxtar respublikamızda muzey fəaliyyətinin yüksək səviyyədə təşkil edilməsinə göstərilən qayğını müxtəlif istiqamətlərdə görmək olar. Belə mədəniyyət müəssisələri üçün müasir tələblərə cavab verən yeni binalar inşa olunur, onların maddi-texniki bazası möhkəmləndirilir. Muzeylərimizə ixtisaslı bələdçilərin işə götürülməsi diqqət mərkəzində saxlanılır.

Nazirliyin əməkdaşı Qumral Məmiyeva "Muzey bələdçisinin davranış qaydaları" mövzusunda çıxış edib. Bildirilib ki, belə seminar-treninqlərin keçirilməsində əsas məqsəd muzeylərdə ekskursiya işinin təşkili ilə bağlı mövcud nöqsan və çatışmazlıqları aradan qaldırmaq, muzey bələdçilərinin nəzəri və praktik bilik səviyyəsini yüksəltməkdir. Bu baxımdan ötən il muxtar respublikanın muzey şəbəkələri üçün təşkil edilən 11 muzey-treninq əhəmiyyətli olub. Muzey bələdçiləri vəzifə funksiyalarını dərindən öyrənməyə səy göstərməklə yanaşı, muzey işi haqqında ətraflı məlumat alıblar.

Sonra Naxçıvan Dövlət Tarix Muzeyində muzey bələdçilərinin təqdimatında Azərbaycan, rus və ingilis dillərində ekspozisiyaya baxış olub və ekskursiya mətni müzakirə edilib, muzey bələdçilərinə metodik tövsiyələr verilib.

**Əli RZAYEV**

## 10 mart 2017-ci il tarixdə Naxçıvan şəhərində saat 11⁰⁰-da hərraca çıxarılacaq müəssisələr haqqında məlumat

| S/s | Müəssisənin adı | Ünvanı | Əmlakın start (satış) qiyməti | 10 % beh |
|---|---|---|---|---|
| 1. | "Duzdağ" hoteli | Duzdağ massivi | 17.288.686,78 | 1.728.868,68 |
| 2. | Tədris-Ticarət Mərkəzi | Naxçıvan şəhəri | 1.534.424,73 | 153.442,47 |

*Qeyd:* Hərraclar Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində hərrac komissiyası tərəfindən keçirilir. Hərracda iştirak etmək üçün komissiyaya aşağıdakı sənədlər hərracın başlanmasına ən geci 3 (üç) bank günü qalanadək təqdim olunmalıdır:

- sifarişçinin şəxsiyyətini təsdiq edən sənəd;
- müəyyən edilmiş formada sifariş;
- Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən müəyyən edilmiş 10 faiz məbləğində behin Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsindəki AZ30NABZ12360150000000065944 nömrəli hesabına ödənildiyi haqda qəbz.

***Ünvan: Naxçıvan şəhəri, Atatürk küçəsi 42***
***Əlaqə nömrəsi: 545-01-38, 545-02-36***

### İtmişdir

Şərur rayonunun Maxta kənd sakini Seyidov Mirhüseyn Mircalal oğlunun adına verilmiş JN-400A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

"Smit Sarayı – Naxçıvan" Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus 0200817181 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 115